**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# AZƏRBAYCANDA XARİCİ TİCARƏTİN LİBERALLAŞMASI İLƏ DAXİLİ BAZARIN QORUNMASI ARASINDA TARAZLIĞIN TƏMİN EDİLMƏSİ YOLLARI

İxtisas: 5310.01 – Dünya iqtisadiyyatı

5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Abasova Suriya Aydinovna**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | iqtisad üzrə elmlər doktoru, professor<br>**Nazim Müzəffər oğlu İmanov** |
| Rəsmi opponentlər: | iqtisad üzrə elmlər doktoru, professor<br>**Səfər Həsən oğlu Pürhani** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Şahin Vaqif oğlu Bayramov** |
| | iqtisad üzrə elmlər doktoru, professor<br>**Elşad Yaqub oğlu Məmmədov** |
| | iqtisad üzrə elmlər doktoru, professor<br>**Fərhad Pənah oğlu Rəhmanov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Iqtisadiyyat Institutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | iqtisad üzrə elmlər doktoru, professor, **Nazim Müzəffər oğlu İmanov** |
| Dissertasiya şurasının elmi katibi: | iqtisad üzrə fəlsəfə doktoru. **Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: | iqtisad üzrə elmlər doktoru, professor, **Rövşən Rasim oğlu Quliyev** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma beynəlxalq ticarətin strukturunu və mahiyyətini getdikcə dəyişərək istehsalçıdan istehlakçıya yönələn ticarət əvəzinə, yeni bir ticarət modelini – bir aralıq məhsulun digər aralıq məhsullar və ya son məhsul istehsal edən istehsalıçılara, oradan da istehlakçıya çatdırılmasını təmin edən ticarət modelini formalaşdırır. Dəyər zəncirinin daha çox ölkəni əhatə etməsi beynəlxalq ticarətə stimul verən digər bir atributun – birbaşa xarici investisiyalar axınının genişlənməsini şərtləndirir. Beynəlxalq ticarətdə dəyər zəncirinin həlqələrinin sayı artdıqca məhsulun "mənşəyi" anlayışı daha çox nisbi xarakter daşımağa başlayır. Əlbəttə, deyilənlər əsasən sənaye məhsullarının, xüsusilə yüksək texnologiyalı məhsulların ticarətinə aiddir və təbii resursların, həmçinin ərzaq məhsullarının ticarətinə, əksər hallarda, aid olmur.

Qloballaşmanın xarici ticarətə təsirinin əsas nəticələri ilə bağlı aparılan tədqiqatlar sübut edir ki, nəqliyyat xərclərinin əmtəənin dəyərindəki payının son 200 ildə kəskin azalması həm xarici ticarətin həcminin kəskin artmasına, həm də ticarət edilən malların strukturunun dəyişməsinə təsir göstərib. Nəqliyyat xərclərinin azalması, ölkələrarası siyasi və mədəni əlaqələrin genişlənməsi nəticəsində istehsalın daha geniş ərazilərdə paylanması baş verib. Artıq hər hansı sənaye məhsulunun bir ölkədə istehsalından deyil, daha geniş ərazilərdə yerləşən dəyər zəncirlərinin mövcudluğundan bəhs edilir. Dünya bazarında məhsulun rəqabətliliyini təmin etmək üçün inkişaf etməkdə olan ölkələr nəqliyyat və kommunikasiya xərclərini azaltmağa getdikcə daha çox məcbur olurlar.

İqtisadiyyatın liberallaşması son 200 ildə ümumi tendensiya olsa da imperativ deyil. Hər bir ölkə öz iqtisadi inkişaf tarixində yalnız liberallaşma istiqamətini tutmur. Elə hallar olur ki, liberallaşma istiqamətindən geri çəkilmələr də olur. Adətən müharibələr dövründə hər bir ölkə öz sərhədlərini xarici mal və xidmətlər üçün tam və ya müəyyən qədər bağlamalı olur. Ölkədə iqtisadi vəziyyətdən asılı olaraq xarici ticarətin, birbaşa xarici investisiyaların məhdudlaşdırılması halları da baş verir. Heç də bütün ölkələr xarici

ticarətin həyata keçirilməsində eyni dərəcədə liberal rejimə malik olmur. Hər bir ölkədə iqtisadi inkişafın prioritet olmasına baxmayaraq, xarici ticarətin liberallığına eyni dərəcədə nail olmamasının və ya buna cəhd edilməməsinin ciddi səbəbləri var. Birinci qrup səbəblər obyektiv səbəblərdir. Belə ki, ölkənin iqtisadi inkişaf səviyyəsi və ya istehsal etdiyi mal və xidmətlərin xarakteri daxili bazarın daha yüksək səviyyədə qorunmasını tələb edir. Bu halda xarici ticarətin məhdudlaşdırılması iqtisadi inkişafı və ictimai rifahın yüksəldilməsini təmin edir. İkinci qrup səbəblər subyektiv səbəblərdir. Bu halda iqtisadi siyasəti müəyyən edən qərar qəbuledicilər iqtisadi konyukturanı nəzərə almadan yalnız siyasi motivlərlə xarici ticarəti məhdudlaşdırmağa cəhd edirlər. Bu halda məhdudlaşdırma tədbirləri iqtisadi inkişafa və ictimai rifah halına mənfi təsir göstərə bilər. Liberallaşma ilə bağlı istənilən qərarlar müsbət nəticə verməyə bilər. Elə buna görə də bu tip qərarları universal hesab etmək olmaz. Elə qərarlar ola bilər ki, onlar həm iqtisadi inkişafı zəiflədə, həm də ictimai rifah səviyyəsini azalda bilər. Ona görə də xarici ticarətin liberallaşması ilə bağlı qərarların iqtisadi, sosial və sair təsirləri tədqiq edilməlidir. Adətən bu təsirlər "daxili bazarın qorunması" adı altında ümumiləşdirilir.

Daxili bazarın qorunması ən azı iki aktorun – "daxili biznesin" və "daxili istehlakçının" qorunmasını tələb edir. Hər iki aktorun qorunması isə iqtisadiyyatın müxtəlif sahələrində liberallaşma və ya proteksionist tədbirlərin həyata keçirilməsi ilə müşayiət oluna bilər. Elə hallar ola bilər ki, "daxili biznesin" qorunması "daxili istehlakçının" mənafeyinə zidd olsun və ya əksinə. Ona görə də daxili bazarın qorunması elə intervalda həyata keçirilməlidir ki, daxili bazarın bütün aktorlarının, xüsusilə də bu iki aktorun mənafeyi eyni zamanda qorunmuş olsun.

Qeyd edək ki, daxili bazarın qorunmasının ölçülməsinin bəzi metodoloji çətinlikləri var. Belə ki, daxili bazar çoxlu sayda mal və xidmətlərin istehsalını, paylanmasını, mübadiləsini və istehlakını əhatə edir. Hər bir mal və xidmətin istehsalından istehlakına qədər olan prosesin öz özəllikləri var. Hər hansı bir malın və xidmətin beynəlxalq ticarəti də fərqli xüsusiyyətlərə malikdir. Onların idxal və ixracında tətbiq edilən tarif və ya qeyri-tarif məhdudiyyətləri də

fərqlidir. Ona görə də "daxili bazarın qorunması" dedikdə ayrı-ayrı mal və xidmətlərdən ibarət sistemin qorunması nəzərdə tutulmalıdır. Belə sistemin qorunmasının ölçülməsində 1) onun ayrı-ayrı elementlərinin (ayrı-ayrı mal və ya xidmətlərin istehsalının) qorunmasının ölçülməsi ilə yanaşı, həm də bütünlükdə sistemə xas olan makro göstəricilərin qorunmasının ölçülməsi də aparılmalıdır. Hər bir ölkə daxili bazarın qorunması üçün xarici ticarəti müəyyən səviyyədə tarif və qeyri-tarif metodlarla məhdudlaşdırmağa və ya bəzi dəstəkləyici tədbirləri həyata keçirməyə cəhd edir. Lakin həyata keçirilən tədbirlərin daxili bazara və ya onun hər hansı bir aspektinə nə dərəcədə müsbət təsir etməsinin qiymətləndirilməsi ciddi hesablamaların aparılmasını tələb edir. Tarif və ya qeyri-tarif tənzimləmə elə səviyyədə tətbiq edilməlidir ki, daxili bazarın qorunması səmərəli olsun.

Azərbaycan iqtisadiyyatında da daxili bazarın qorunması ilə xarici ticarətin liberallaşması arasında tarazlıq problemləri öz həllini gözləyir. Hər hansı mal qrupuna hansı idxal tarifləri tətbiq edilməlidir ki, "istehlakçı artığı"-nın itkisini azaltmaqla yanaşı daxili istehsal prosesinə dəstək verilmiş olsun. Bu zaman Azərbaycan iqtisadiyyatının "kiçik" olması, yəni əksər mal qrupları üzrə dünya qiymətlərinə təsir edə bilmək imkanının olmaması diqqət mərkəzində dayanmalıdır.

Dissertasiya işində iki mühüm proses-daxili bazarın qorunması və xarici ticarətin liberallaşması bir-birinə zidd proseslər kimi araşdırılıb. Bu iki prosesin yerli ölkələrdə reallaşması mexanizmi kimi ticarətin, xüsusilə idxala qoyulan məhdudiyyətlərin, o cümlədən tariflərin istehlakçı itkilərinə, istehsalıçı gəlirlərinə, dövlət gəlirlərinə və səmərəlilik itkilərinə təsiri tədqiq edilib.. Bu problem iqtisadi ədəbiyyatda ölkənin rifah səviyyəsinin xarici ticarətin liberallaşmasından asılılığı kimi geniş tədqiq edilir.

İqtisadiyyatın liberallaşması və iqtisadiyyatın dövlət tənzimlənməsi problemləri. P. Greory, D. North, D. Acemoglu, S. Djankov, P. Hall, S. Mizobata, B. Porter, M. Aoki, T. Geiger, Ji. Baocheng və sair tədqiqatçılar tərəfindən geniş tədqiq olunub.

Xarici iqtisadi əlaqələrin inkişafı məsələləri Azərbaycan alimləri tərəfindən də tədqiq edilib. Xarici ticarət fəaliyyətinin nəzəri aspektləri Ş.H.Hacıyev, Ə.B.Bayramov, R.B.Quliyev, S.H. Pürhani, M.Y.Quliyev, M.X.Meybullayev İ.A.Kərimov, M.A.Əhmədov, D.Ə.Vəliyev, F.Ə.Qənbərov və başqaları tərəfindən tədqiq edilib. Daxili bazarın inkişaf etdirilməsinin və qorunmasının müxtəlif aspektləri Ə.X.Nuriyev, M.A.Məmmədov, E.Y.Məmmədov və başqaları tərəfindən tədqiq edilib. İqtisadiyyatın iberallaşması ilə dövlət tənzimləməsi arasında tarazlıq problemləri N. Müzəffərlinin və M.G.Gülalıyevin əsərlərində öz əksini tapıb. Lakin Azərbaycanın xarici ticarət əlaqələrinin müxtəlif aspektlərinə dair çoxsaylı tədqiqatların olmasına baxmayaraq, xarici ticarətin liberallaşmasının daxili bazara təsirinin tarazlaşdırılması problemləri müxtəlif mal qrupları üzrə mikrosəviyyədə və makro səviyyədə ilk dəfə olaraq tədqiq edilir.

**Dissertasiya işinin məqsədi** –Azərbaycan iqtisadiyyatında mikro və makro səviyyədə daxili bazarın qorunması üçün xarici ticarət rejiminin inkişaf modelinin hazırlanmasıdır.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müəyyən edilən vəzifələr aşağıdakı alqoritmlə həyata keçirilmişdir:

1. Xarici ticarət və onun mahiyyətinin tarixi analizi. Bu blokda a) Xarici ticarətin genişlənməsinin əsas səbəbləri; b) Xarici ticarətin strukturunun mahiyyətcə dəyişməsi; c) Xarici ticarətin liberallaşmasının və ya məhdudlaşdırılmasının qeyri-universallığı analiz edilib.

2. Daxili bazarın mahiyyəti və onun qorunması mexanizmlərinə elmi baxışların müqayisəli təhlili. Bu blokda a) mikro və makro səviyyədə daxili bazarın mahiyyəti və onun qorunmasının əsas xüsusiyyətləri; b) mikro və makro səviyyədə daxili bazarın qorunması dərəcəsinin ölçülməsi metodları müqayisəli təhlil edilib.

3. Daxili bazarın qorunmasının qiymətləndirilməsi üçün effektiv tariflərdən istifadə imkanları və onların nominal tariflərlərdən əsas fərqlərinin analizi. Bu blokda a) nominal və effektiv tariflər arasındakı fərqlər; b) effektiv tariflərin hesablanması metodu; c)effektiv tariflərin tətbiqinin vacibliyi tədqiq edilib.

4. Azərbaycanın xarici ticarət fəaliyyətinin əsas xüsusiyyətlərinin analizi. Bu blokda a)xarici ticarət əlaqələrinin dinamikası; b) Azərbaycanın xarici ticarət fəaliyyətinin rəqabətliliyi kəmiyyətcə qiymətləndirilib;

5. Daxili bazarın qorunması üçün effektiv idxal tariflərinin müəyyən edilməsi. Bu blokda a) idxala tələb funksiyası modelinin daxili bazarın qorunmasından asılılığı; b) Azərbaycanda bəzi mal qrupları üzrə tələb və təklif funksiyalarının müəyyən edilməsi; c) Azərbaycanın məcmu iqtisadiyyatı üçün tələb və təklif funksiyaları modelinin müəyyən edilməsi reallaşıb.

6. Daxili bazarın qorunmasının qiymətləndirilməsi və Azərbaycanda xarici ticarətin liberallaşmasının təsirlərinin modellərinin hazırlanması. Bu blokda a) bəzi mal qrupları üzrə tariflərin effektiv və nominal səviyyələrinin qiymətləndirilməsi; b) bəzi mal qrupları və məcmu iqtisadiyyat üzrə daxili bazarın qorunması üçün idxal tariflərinin müəyyənləşdirilməsi həyata keçirilib.

7. Mikro və makro səviyyədə optimal idxal tariflərinin müəyyən edilməsi metodikasının hazırlanması və alınan nəticələrin "iqtisadiyyatın solluğu (sağlığı) indeksi" vasitəsilə alınan nəticələrlə müqayisəsi. Bu blokda a) mikro və makro səviyyədə optimal idxal tariflərinin müəyyən edilməsi metodikası hazırlanıb; b) makrosəviyyədə alınan nəticələr İS(S)İ üzrə alınan nəticələrlə müqayisə edilib.

**Tədqiqatın obyekti** – Azərbaycan iqtisadiyyatı və onun xarici ticarət aspektidir.

**Tədqiqatın predmeti** Azərbaycanın xarici ticarət fəaliyyətində idxalın liberallaşmasının daxili bazara təsirinin öyrənilməsidir. Bu, dolayısı ilə xarici ticarət prosesində iştirak edən üç aktorun-istehsalçının, dövlətin və istehlakçının iqtisadi münasibətlərinə tariflərin və qeyri-tarif məhdudiyyətlərin təsirinin öyrənilməsi deməkdir.

**Tədqiqatın əsas sualı:** Azərbaycanda bəzi mal qrupları və məcmu iqtisadiyyat üzrə xarici ticarət rejimi hansı həddə qədər liberallaşa bilər ki, həm daxili bazar qorunmuş olsun, həm də istehlakçıların maddi itkiləri minimum olsun.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** qloballaşma prosesi, xarici ticarət fəaliyyəti, iqtisadiyyatın dövlət tənzimlənməsi sahələrində müasir iqtisadi nəzəriyyələr, beynəlxalq ticarətdə rəqabət üstünlükləri nəzəriyyəsi, dünya və ölkə iqtisadçı alimlərinin liberallaşma və proteksionizmə dair elmi tədqiqatları və konsepsiyaları, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanunvericilik və normativ aktlar təşkil edir. Tədqiqat prosesində müqayisəli analiz, iqtisadi-riyazi metodlar, ekonometrik analiz metodları tətbiq edilib.

**Tədqiqatın məlumat-empirik bazasını** Azərbaycan və xarici ölkə müəlliflərinin qloballaşma, avtarkiya, liberallaşma, xarici ticarət və sair məsələlərə, həmçinin Azərbaycan iqtisadiyyatının müasir inkişaf meyllərinə, xarici ticarət siyasəti sahəsində dövlət tənzimlənməsinə həsr olunmuş əsərlər, tədqiqatçıların ekspert qiymətləndirmələri, elmi məqalələrin və dövri mətbuatın informasiya materialları, həmçinin Azərbaycan Respublikası Statistika Komitəsinin, Gömrük Komitəsinin və Mərkəzi Bankın rəsmi məlumatları, beynəlxalq iqtisadi təşkilatların (BVF, Dünya Bankı, BMT bölmələri) illik hesabatları və statistik məcmuələri təşkil edir.

**Dissertasiya işinin elmi yeniliyi**: dissertasiya işinin əsas elmi yeniliklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Daxili bazarın mahiyyəti və onun qorunmasının xarici ticarətin liberallaşması ilə ziddiyyət təşkil etməsi əsaslandırılıb;

2. Daxili bazarın qorunması səviyyəsinin kəmiyyətcə qiymətləndirilməsi üçün yeni metodologiya hazırlanıb;

3. “kiçik” və “böyük” ölkələrdə konkret mal qrupları üçün optimal tariflərin hesablanması metodları müqayisə edilərək, “kiçik” ölkələr üçün optimal tariflərin hesablanması üçün meyarlar müəyyən edilib;

4. Azərbaycanın xarici ticarət fəaliyyəti üçün “Əsas ixrac kateqoriyası indeksi”, “Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə Əsas İdxal Kateqoriyaları İndeksi”, “xarici ticarətdən asılılıq ideksi”, “İdxalın və ixracın konsentrasiyası indeksi” və sair digər indekslər hesablanıb;

5. Doqquz mal qrupu üçün tələb və təklif funksiyaları tərtib edilib;

6. Azərbaycanın məcmu iqtisadiyyatı üçün tələb və təklif funksiyası tərtib edilib;

7. Dörd mal qrupu üçün idxal tariflərinin istehlakçı itkilərinə, istehsalçı qazancına, dövlət gəlirlərinə və səmərəlilik itkilərinə təsirləri qiymətləndirilərək, bu mal qrupları üçün tariflərin azaldılması əsaslandırılıb.

8. İdxal tariflərinin istehlakçı və istehsalçı artığına, dövlət gəlirlərinə və səmərəliliyə təsirinin qiymətləndirilməsi vasitəsilə məcmu iqtisadiyyat üçün orta idxal tarif dərəcəsinin azaldılması əsaslandırılıb.

9. Daxili bazarın qorunması ilə xarici ticarətin liberallığı arasındakı optimal balansın iki metodla, yəni a) tələb və təklif funksiyalarının, həmçinin "effektiv tarif dərəcələrinin" tətbiqi və b) "xarici ticarət sub-indeksi" metodları ilə, müəyyən edilən qiymətləri müqayisəli analiz edilib.

**Dissertasiya işinin nəzəri əhəmiyyəti** ayrı-ayrı mal qrupları və məcmu iqtisadiyyat üzrə xarici ticarətin dövlət tənzimləməsi ilə liberallıq səviyyəsi arasında müvazinətin yaradılmasından və davamlı iqtisadi artıma nail olmaq üçün xarici ticarət fəaliyyətinin təkmilləşdirilməsindən ibarətdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** dissertasiya işində təklif olunan metodlar və praktiki tövsiyələr ayrı-ayrı mal qrupları üzrə daxili bazarın qorunması ilə yanaşı həm də əhalinin daha keyfiyyətli və əlçatan idxal malları ilə təmin edilməsi üçün optimal tariflərin müəyyən edilməsində mühüm rol oynaya bilər. Dissertasiya işində əldə edilən nəticələrdən ayrı-ayrı mal qruplarının rəqabət qabiliyyətliliyinin artırılması üzrə dövlət siyasətinin işlənib hazırlanmasında, həmçinin, «Dünya iqtisadiyyatı», «Makroiqtisadiyyat», «Ümumi iqtisadi nəzəriyyə», «Beynəlxalq iqtisadi münasibətlər» fənlərinin tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiyada müəyyən edilmiş əsas müddəalar, nəzəri ümumiləşdirmələr, praktiki nəticələr və tövsiyələr AMEA-nın müxbir üzvü, i.e.d., prof. A.Musayevin 70 illiyinə həsr

edilən konfransda, AMEA İqtisadiyyat İnstitutunun 60 illiyinə həsr edilən "İqtisadi artım və ictimai rifah" adlı elmi-praktiki konfransda, Türkiyədə 2020-ci ilin martında keçirilən "Sənaye, Hüquq, Təhsil və Fənlərarası tədqiqatlar" adlı konfransda və digər nüfuzlu deynəlxalq elmi tədbirlərdə məruzə edilmişdir. Dissertasiya tədqiqatının nəticələri ümumi həcmi 15 ç.v.-dən çox olan 16 məqalədə, 1 kollektiv monoqrafiya dərc edilmişdir. Bunlardan 2 məqalə SCOPUS bazasına, 6 məqalə РИНЦ bazasına, həmçinin Rusiya Ali Attestasiya Komissiyasının ümumi siyahısına daxil olan nüfuzlu jurnallarda dərc edilib.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Milli Elmlər Akademiyasi İqtisadiyyat İnstitutu.

**Tədqiqat işinin quruluşu və həcmi.** Dissertasiya işi cəmi 260 min işarəsi olan 182 səhifədən, o cümlədən, üç fəsildən və 11 paraqrafdan, giriş, nəticə və təkliflərdən ibarətdir. Birinçi fəsil 52 səhifədən, ikinci fəsil 54 sahifədən, ücüncü fəsil 40 səhifədən ibarətdir. Dissertasiya işinin həcmi (21 cədvəl, 17 şəkil, 31 qrafik, və 170 istinaddan ibarət ədəbiyyat siyahısı istisna olmaqla) 210 min işarədən ibarətdir.

## MÜDAFİƏ ÜÇÜN TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

Dissertasiyanın birinci fəslində xarici ticarətin liberallaşması ilə daxili bazarın qorunması problemlərinin dialektik vəhdətinin nəzəri aspektləri tədqiq edilib. Xarici ticarət fəaliyyətinin son 100 ildə davamlı olaraq genişlənməsi hadisəsinə qloballaşmanın atributu kimi yanaşılıb. Xarici ticarətin məhdudlaşdırılması və daxili bazarın qorunması səviyyəsinin qiymətləndirilməsi, həmçinin "kiçik" və "böyük" ölkələr üçün optimal tariflərin müəyyən edilməsi metodlarının müqayisəsi aparılıb.

İkinci fəsildə Azərbaycanın xarici ticarət fəaliyyətinin xüsusiyyətləri və kəmiyyətcə qiymətləndirilməsi, həmçinin bəzi mal qrupları və məcmu idxal üçün tələb və təklif funksiyaları modelləşdirilib. Azərbaycanın xarici ticarət fəaliyyətinin özəllikləri analiz edilmiş, məcmu idxal üçün tələb funksiyası modelləşdirilmiş və onun daxili bazardan asılılığı analiz edilmişdir. Azərbaycanda bəzi mal qrupları, həmçinin məcmu iqtisadiyyat üzrə tələb və təklif funksiyaları modelləşdirilmişdir. Bu problemlərin analizi əsasında aşağıdakı müddəalar müdafiə üçün irəli sürülmüşdür:

**Müddəa 1: Azərbaycanda ixracın diversifikasiyası təmin edilməyib, lakin idxalın şaxələnməsi səviyyəsi yüksəkdir.**

Azərbaycanda idxal və ixracın strukturunu, həmçinin diversifikasiya səviyyəsini qiymətləndirmək üçün "Herfindahl-Hirschman indeksi", "xarici ticarətdən asılılıq ideksi", "əsas idxal/ixrac indeksi", "ticarətin kəsişmə indeksi" və sair indekslər hesablanmışdır.

Beynəlxalq standart ticarət təsnifatına görə Azərbaycan üçün "əsas idxal/ixrac indeksinin" hesablanması göstərir ki, bütün qruplar arasında "Mineral yanacaq, sürtkü yağları və bənzər materiallar" qrupu ölkənin ixracının əsasını təşkil edir. Bu kateqoriyaya aid ixracın həcmi ölkə ixracatında 61,45% - 97,8% intervalında dəyişmişdir. Hesablamalar göstərir ki, Azərbaycanda ixracın şaxələndirilməsi səviyyəsi aşağıdır.

Malların çoxunun idxalı müvəqqəti deyil və bu mallara tələb səviyyəsi ölkədə nisbətən dayanıqlıdır. Ölkənin ümumi idxalında

"Maşın və avadanlıqlar" kateqoriyasındakı idxal digər kateqoriyalara nisbətən daha yüksək paya malikdir. Son 22 ildə bu kateqoriyaya aid idxal 23,5% -dən 47,5% -ə qədər dəyişib və "neft bumu" dövründə (2005-2012) ən böyük paya malik olub.

**Müddəa 2: Azərbaycan üçün «intra-industry" indeksi yüksək deyil və onun qiyməti [0.054 ÷ 0.345] intervalında dəyişir. Bu indeksin son 22 il üçün orta qiyməti 0.191 hesab edilə bilər.**

"İntra-industry" indeksi və ya «Grubel-Lloyd» indeksi (1) düsturu əsasında hesablanmışdır:

$$\text{İİİ}=1-\frac{\sum_1^{10}|Q_{ex}^i-Q_{im}^i|}{\sum_1^{10}Q_{ex}^i+Q_{em}^i} \qquad (1)$$

Burada, $Q_{ex}^i$ – i-ci mal qrupunun ixrac həcmidir; $Q_{im}^i$ – i-ci mal qrupunun idxal həcmidir. Bu indeks [0; 1] intervalında dəyişir. İndeksin yüksək olması o deməkdir ki, ölkə daha geniş həcmdə "intra-industry" ticarət prosesinə qoşulub. Bu isə ölkənin dünya təsərrüfat sisteminə daha geniş miqyasda inteqrasiyası deməkdir. Azərbaycan üçün "intra-industry" indeksi həm illər, həm də mal qrupları üzrə dəyişkəndir. Hesablama zamanı Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə hər bir mal qrupuna aid "intra-industry indeks" hesablanıb. Mal qrupları üzrə "intra-industry" indeksi bir-birindən, həmçinin illər üzrə kəskin fərqlənir. Məsələn, "Yeyinti məhsulları və diri heyvanlar" qrupu üzrə "intra-industry" indeksi 1996-cı ildən 2005-ci ilədək davamlı olaraq artır və uyğun olaraq, 0,071-dən 0,872-yə qədər yüksəlir. Sonrakı illərdə müəyyən azalma olsa da indeks yüksək qiymətini saxlayır. "İçkilər və tütün" qrupu üzrə bu indeks 1996-cı ildən 2009-cu ilədək müəyyən istisnalarla azalma tendensiyasına malikdir. Bu mal qrupu üzrə indeksin son 22 ildə orta qiyməti 0,44-dür. "Qeyri-ərzaq xammalı (yanacaqdan başqa)" qrupu üzrə "intra-industry" indeksi müxtəlif illərdə müxtəlif qiymətlərə malikdir və son 22 ildə 0,60 qiyməti alıb. "Mineral yanacaq, sürtkü yağları, analoji materiallar" qrupu üzrə "intra-industry" indeksi xeyli aşağıdır və orta qiymət 0.119-a bərabərdir. "İntra-industry" indeksinin son 22 il üçün orta qiyməti "Heyvan və bitki mənşəli yağlar, piylər" qrupu üzrə-

0,629; “Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar” qrupu üzrə 0,476; “Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları” qrupu üzrə 0,250; “Maşınlar və nəqliyyat avadanlıqları” qrupu üzrə 0,137; “Müxtəlif sənaye məmulatları” qrupu üzrə 0,214; “Digər kateqoriyalara daxil edilməyən mallar” qrupu üzrə 0.185 olub. Azərbaycanın xarici ticarətində “İntra-industry” indeksi az olan mal qrupları 1) “Mineral yanacaq, sürtkü yağları, analoji materiallar” qrupu; 2) “Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları” qrupu; 3) “Maşınlar və nəqliyyat avadanlıqları” qrupu; 4) “Müxtəlif sənaye məmulatları” qrupu və 5)“Digər kateqoriyalara daxil edilməyən mallar” qrupudur. Bu qruplar üzrə Azərbaycanı dünya təsərrüfat sisteminə inteqrasiya edilmiş hesab etmək olmaz.

**Müddəa 3: Son 17 ildə ÜDM həcminin və milli gəlirin, həmçinin xarici ticarət dövriyyəsinin kəskin artması Azərbaycanda ticarət şərtinin (TOT) də dəyişməsinə səbəb olub. Neft gəlirlərinin ən yüksək olduğu 2011-ci ildə ticarət şərti indeksi də maksimum olub (TOT=3.4).**

Xarici ticarətin analizi üçün istifadə edilən mühüm statistik metodlardan biri “ticarət şərti” indeksidir. Tədqiqat zamanı bu indeksi hesablamaq üçün Laspeyres düsturundan (2) istifadə edilib:

$$TOT=\frac{\frac{\sum_i^n PEX_{I,t}*QEX_{I,0}}{\sum_i^n PEX_{I,0}*QEX_{I,0}}}{\frac{\sum_i^n PIM_{I,t}*QIM_{I,0}}{\sum_i^n PIM_{I,0}*QIM_{I,0}}} \qquad (2)$$

Burada, məxrəcdə idxal olunan malların baza ilinə nisbətən qiymət indeksi, surətdə isə baza ilinə nisbətən ixrac mallarının qiymət indeksidir. Tədqiqat prosesində 1999-cu il baza ili kimi götürülüb. Son 17 il üzrə Azərbaycanda idxal və ixrac mallarının qiymət indeksi, həmçinin ticarət şərti hesablanıb. Ticarət şərtinin Azərbaycan üçün xarakterik cəhəti onun dövrülüyüdür.

Bu indeks Azərbaycanda ixraca nisbətən idxalın nisbi qiymətini, yaxud ixrac qiymətlərinin idxala nisbətini ifadə edir. Bu indeks həm də bir vahid ixrac mallarının hesabına nə qədər idxal malı almağın

mümkünlüyünü bildirir. Ticarət şərti həm ölkədə, həm də dünya bazarında qiymətlərlə bağlıdır. Ölkədə yerli valyutanın güclənməsi daxili bazarda qiymətlərin aşağı düşməsinə səbəb olur. Milli valyutanın devalvasiyası isə daxili bazarda qiymətləri artırır.

**Müddəa 4: Məcmu idxalın tələb funksiyası xarici ticarətin azadlığı səviyyəsindən asılı deyil. Lakin məcmu gəlirlərdən, manatın alıcılıq qabiliyyəti paritetindən və cəmi gömrük ödənişlərindən asılılıq güclüdür.**

Azərbaycan üzrə məcmu idxalın tələb funksiyasının

$$\dot{I}M_t = f(C_t; \dot{I}ncome_t; PPP_t;\ ACD_t;\ TF_t) \qquad (3)$$

$C_t$- istehlak xərclərindən; $\dot{I}ncome_t$- gəlirlərdən; $PPP_t$- manatın alıcılıq qabiliyyəti paretitindən; $ACD_t$- cəni gömrük ödənişlərindən və $TF_t$- ticarət azadlığı səviyyəsindən asılılığının empirik qiymətləndirilməsi deməyə əsas verir ki, bu kəmiyyət idxal həcmi üçün mühüm əhəmiyyət daşıyan xarici ticarətin liberallıq səviyyəsindən asılı deyil. 2007-2019-cu illəri əhatə edən empirik məlumatlar əsasında bu göstəricilər arasındakı asılılığın xətti toplu reqresiya tənliyi aşağıdakı nəticəni verir:

İMP = 8358.677 + 0.471319*İncome - 829.603*PPP -
(1597.558) (0.056272) (189.2471)

-23682.4*ACD (4)
(6049.509)

İdxalın tələb funksiyası əsasən üç dəyişəndən- gəlirlərdən, milli valyutanın alıcılıq qabiliyyəti paritetindən və cəmi gömrük ödəmələrindən asılıdır. Gəlirlər artdıqca idxala olan tələb artır. Manatın alıcılıq qabiliyyəti pariteti və cəmi gömrük ödəmələri artdıqca idxala olan tələb azalır. Gəlirlər çoxaldıqca əhali daha yüksək keyfiyyətli və daha çox çeşidli mallara meyil edirlər.

**Müddəa 5: Azərbaycana idxal olunan bəzi mal qrupları üçün tələb və təklif göstəricilərinin xətti və qeyri-xətti funksiyaları qurulub.**

Dünya qiymətləri ($P_{wi}$), idxal rüsumları ($\tau_i$), yerli ($C_i^d = C_{in}^d *$ $* P_{wi} * (1 + \tau_i) * e_r$), və idxal mallarının ($C_{in}^f$), həmçinin cəmi istehlakın fiziki həcmi ($C_{in}^d$), idxal malları üçün xərclərin ($C_i^f = C_{in}^f *$ $* P_{wi} * (1 + \tau_i) * e_r$) və nisbət göstəricisinin ($\gamma_i = \frac{C_i^d + C_i^f}{Expen}$) vasitəsilə qeyri-xətti funksiya ($D_i(P) = \frac{\gamma_i * Income}{P_i}$) müəyyən edilib. Digər tərəfdən, bəzi fərzlərin qəbul edilməsi, həmçinin "i-ci malın maksimum qiymətində onu əvəz edə bilən mal və onun qiyməti" ($P_{imax} = m_i$), "i-ci malın minimum qiymətində onun əvəz etdiyi malların maksimum həcmi" ($Q_{imax} = \frac{m_i}{n_i}$) göstəriciləri vasitəsilə bəzi mal qrupları üçün xətti tələb funksiyası ($D_i(Q) = m_i - n_i * Q_i$) qurulmuşdur (cədvəl 1).

Tədqiqat üçün seçilmiş bəzi mal qrupları üçün təklifin xətti funksiyası (5) düsturu əsasında qurulmuşdur (cədvəl 1).

$$P_i = p_0^i + (p_w^i + p_{w*}^i \tau_i - p_0^i)/(q_d^i + q_{im}^i) * Q_i \qquad (5)$$

Burada $p_0^i$ – i-ci malın istehsalının və idxalının dayana biləcəyi minimum qiymətdir. $p_w^i$ – i-ci malın dünya qiymətidir. $\tau_i$ – i-ci mal üçün idxal tarifidir. $q_d^i$ və $q_{im}^i$ – i-ci malın, uyğun olaraq, ölkədə istehsal edilən və ölkəyə idxal olunan həcmidir.

**Cədvəl 1.**

**Bəzi mal qrupları üçün xətti və qeyri-xətti tələb və təklif funksiyaları**

| | Qeyri-xətti tələb funksiyası | Xətti tələb funksiyası | Xətti təklif funksiyası |
|---|---|---|---|
| Makaron (ton) | $Q_{macaron} =$ 3584.4/$P_{macaron}$ | $P_{mac}$=2860.2 - 0.00236*$Q_{mac}$ | $P_{mac=} = 616.39 +$ $+0.02356 * Q_{mac}$ |
| Kərə yağı (ton) | $Q_{buter} =$ 36882.7/$P_{buter}$ | $P_{buter}$=93000 - 0.4447*$Q_{buter}$ | $P_{butter=}$ $= 2711.4 + 0.044$ $* Q_{butter}$ |

| Cədvəl 1-in ardı | | | |
|---|---|---|---|
| Ət kolbasası və digər oxşar mallar (ton) | $Q_{sausage} = 14827.7/P_{sausage}$ | $P_{sausage}$=16900 - 0.0231*$Q_{sausage}$ | $P_{sausage} = 2890.27 + 0.124 * Q_{sausage}$ |
| Meyvə və tərəvəz konservləri (ton) | $Q_{canned} = 77470.8/P_{canned}$ | $P_{canned}$=1680 - 0.0052*$Q_{canned}$ | $P_{canned} = 1342.42 + 0.0053 * Q_{canned}$ |
| Siqaret (mln.ədəd) | $Q_{cigar} = 42.2/P_{cigar}$ | - | - |
| Ayaqqabı (min cüt) | $Q_{shoes} = 18561.4/P_{shoes}$ | - | - |

Qeyd: müəllif tərəfindən hesablanmışdır

**Müddəa 6: Məcmu iqtisadiyyat üzrə xətti tələb və təklif funksiyaları müəyyən edilmişdir.**

Məcmu iqtisadiyyat üzrə xətti tələb və təklif funksiyalarının müəyyən edilməsi üçün şəkil 1-də verilən sadələşdirilmiş modeldən istifadə edilib. 2015-ci ildə məcmu tələblə məcmu təklifin tarazlıq nöqtəsinin "A" olduğu fərz edilib. 2016-cı ildə isə qiymətlərin kəskin dəyişməsi nəticəsində dollarla qiymət səviyyəsi aşağı düşmüş və təklif əyrisi üzrə sola hərəkət baş vermişdir.




**Şəkil 1. Məcmu tələb əyrisinin 2015-2017-ci illərdə yerdəyişməsinin sadələşdirilmiş modeli**

ABŞ dolları ilə hesablanan qiymət səviyyəsi 109.9-dan 51.8 səviyyəsinə qədər azalıb. Bunun nəticəsində real ÜDM həcmi kəskin

dəyişərək, 22017.78 mln.ABŞ dollarından 13987.00 mln.ABŞ dollarına qədər azalmışdır. Təklif həcmində belə dəyişmə xərclərin həcmində də özünü göstərib və real məcmu tələb 20289.72 mln. dollardan 12970.74 mln. dollara qədər azalaraq tələb əyrisini "sola" – "B" nöqtəsinə sürüşdürüb. "B" nöqtəsindən "C" nöqtəsinə əyri boyunca hərəkət qiymət səviyyəsini artırsa da tələbin bir qədər də azalmasına səbəb olub.

Modeləki iki nöqtəyə, yəni "B" və "C" tarazlıq nöqtələrinə əsaslananraq, 2016-cı il üçün məcmu tələb əyrisi qurulub. Belə ki, "B" nöqtəsində 51.8=m - n*12970.73; "A" nöqtəsində isə 58.9 = m - n*10023.27 olur. Bu iki tənliyin həllindən m=84; n=0.0025 alınıb. Beləliklə, məcmu tələb əyrisi

$$PI(Q)=84 - 0.0025*Q \qquad (6)$$

kimi ifadə edilə bilər. Burada PI(Q) ölkə iqtisadiyyatında qiymət səviyyəsinin məcmu tələbdən asılılığını ifadə edən funksiyadır. Bu funksiya məcmu tələbin yalnız qiymətdən asılılığını ifadə edərək, 2015-2017-ci illəri əhatə edən ortamüddətli dövrdə məcmu tələb və təklif həcmlərindəki dəyişmələri nəzərə alıb.

Üçüncü fəsildə Azərbaycanda xarici ticarətin liberallaşması səviyyəsinin təsirlərinin modelləşdirilməsi, o cümlədən bəzi mal qrupları və məcmu iqtisadiyyat üzrə daxili bazarın qorunması üçün nominal və effektiv tariflərin qiymətləndirilməsi yerinə yetirilib. Bu problemlərin tədqiqi ilə bağlı olaraq, aşağıdakı müddəalar müdafiəyə təqdim edilir:

**Müddəa 7: Əsas ərzaq məhsullarının daxili bazarının qorunması digər tədbirlərlə yanaşı, həm də gömrük tarifləri vasitəsilə təmin edilir. Azərbaycanda bəzi qida və tütün məhsulları üzrə daxili bazarın qorunma dərəcəsi aşağıdır.**

Daxili bazarın effektiv qorunmasını ölçmək üçün (7) düsturundan istifadə edilmişdir:

$$ERP_i = \frac{t_i - \sum_j^n (t_j * a_{ij})}{1 - \sum_j^n a_{ij}} \qquad (7)$$

Bəzi mallar üzrə daxili bazarın effektiv qorunma dərəcəsinin hesablanması 2-ci cədvəldə verilmişdir. Burada $t_i$-gömrük rüsumları və hazır məhsullara ƏDV (%); $wp_i$ - hazır məhsulun dünya qiyməti (ABŞ dolları/bir vahid); $t_j$-aralıq məhsullar və ya xammal üçün gömrük vergiləri (%); $wpm_j$ - aralıq məhsulların və ya xammalın dünya qiyməti (ABŞ dolları/bir vahid); $a_{ij}$-aralıq malların və ya xammalın son məhsuldakı payıdır (%).

**Cədvəl 2.**

**Azərbaycanda bəzi qida və tütün məhsulları üzrə daxili bazarın qorunmasının effektivlik dərəcəsi (2017) (ERP)**

| | $t_i$ | $wp_i$ | $t_j$ | $wpm_j$ | $a_{ij}$ | $ERP_i$ |
|---|---|---|---|---|---|---|
| Un (ton) | 15+18 | | | | | 0,66 |
| Buğda (ton) | | | 0+18 | 210 | 0,69 | |
| Makaron (ton) | 15+18 | 804,3 | | | | 0,33 |
| Buğda unu, bərk (ton) | | | 15+18 | 210 | 0,13 | |
| Buğda unu, yumşaq (ton) | | | 15+18 | 180 | 0,11 | |
| Pendir | 15+18 | 3500 | | | | 0,33 |
| Süd | | | 15+18 | 1617 | 0,46 | |
| Kərə yağı | 15+18 | 4844 | | | | 0,33 |
| Süd | | | 15+18 | 1617 | 0,33 | |
| Ətli kolbasa və digər oxşar məhsullar | 15+18 | 3711 | | | | 0,33 |
| Ət | | | 15+18 | 2860 | 0,77 | |
| Balıq konservləri | 15+18 | 2648 | | | | 0,34 |
| Balıq | | | 14+18 | 1575 | 0,59 | |
| Meyvə və tərəvəz şirələri | 10+18 | 1066 | | | | -0.20 |
| Tərəvəz | | | 14+18 | 542.7 | 0,25 | |
| Meyvə | | | 14+18 | 895.8 | 0,42 | |
| Tərəvəz və meyvələr | 15+18 | 1642 | | | | -0,34 |
| Tərəvəz | | | 14+18 | 542.7 | 0,16 | |
| Meyvə | | | 14+18 | 895.8 | 0,27 | |
| Siqaret (mln ədəd) | 0+18 | 14506.3 | | | | -0,15 |
| Tütün (ton) | | | 15+18 | 2533.1 | 0,17 | |

Qeyd: müəllif tərəfindən hesablanmışdır

Effektiv tarif dərəcələrinin hesablanmasına əsasən gömrük ödənişləri vasitəsilə əsas qida məhsulları istehsalı üzrə daxili bazarın qorunması təmin edilib. Nəzərdən keçirdiyimiz məhsullardan yalnız ikisi üzrə - “Meyvə və tərəvəz şirələri”, həmçinin “Konservləşdirilmiş

tərəvəz və meyvələr" nomenklaturası üzrə daxili bazarın effektiv qorunma dərəcəsi mənfidir. Siqaret istehsalında da daxili istehsal effektiv qorunmur.

**Cədvəl 3.**

**Azərbaycanda emal sənayesinin müəyyən məhsullarının istehsalı üçün daxili bazarın qorunmasının effektivlik dərəcəsi (2017) (ERP)**

| | $t_i$ | $wp_i$ | $t_j$ | $wpm_j$ | $a_{ij}$ | $ERP_i$ |
|---|---|---|---|---|---|---|
| Pambıq parça (5 min kvadrat metr) (~ 0,2 ton), (ton) | 15+18 | 3187 | | | | -0.47 |
| Pambıq (ton) | | | 5+18 | 1886.2 | 0.59 | |
| Pambıq aksesuarları və geyimləri (ton) | 15+18 | | | | | 0.33 |
| Pambıq ipliyi, ton | | | 15+18 | 3000 | | |
| Dəri kişi ayaqqabılarının istehsalı (min cüt) | 15+18 | 13373 | | | 0,15 | 0,33 |
| Təbii dəri (220 kvadrat metr) | | | 15+18 | 2000 | | |

Qeyd: müəllif tərəfindən hesablanmışdır

Emal sənayesinin bir neçə sahəsində (pambıq parça və dəri ayaqqabıların istehsalı) daxili bazarın qorunması üçün yüksək gömrük ödənişləri tətbiq edilib. Lakin son məhsullarla eyni səviyyədə aralıq məhsullara gömrük ödənişlərinin tətbiqi effektiv tariflərin aşağı səviyyədə olmasına və daxili bazarın qorunmamasına səbəb olub. Azərbaycanda hətta pambıq parça istehsalında effektiv tarif dərəcəsi mənfidir, yəni daxili bazar qorunmur.

**Müddəa 8: Bəzi mal qruplarının idxalı zamanı tariflərin optimal səviyyəsinin müəyyənləşdirilməsi üçün metodologiya təklif olunur.**

Bəzi mal qrupları üçün, həmçinin məcmu idxal üçün tələb və təklif funksiyaları arasındakı tarazlığı tətbiq edərək, 1) dövlət gəlirlərini; 2) istehsalçıların gəlirlərini; 3) istehlakçı artığını maksimumlaşdırmağı nəzərdə tutan metodologiya təklif edilir.

İstehlakçı profisitindəki dəyişikliyi, istehsalçının profisitindəki dəyişikliyi, dövlət gəlirlərini və səmərəliliyin itkisini təyin etmək üçün müvafiq olaraq (8), (9), (10), (11) bərabərliklərdən istifadə edilmişdir:

$$\Delta CS=\frac{\propto*\tau*(2*c-2*\propto-\propto*\tau)}{2*d} \quad (8)$$

$$\Delta PS=\frac{\propto*\tau*(2*\propto-2*a+\propto*\tau)}{2*b} \quad (9)$$

$$\Delta SR=\propto*\tau*(\frac{a-\propto*(1+\tau)}{b}+\frac{c-\propto*(1+\tau)}{d}) \quad (10)$$

$$DWL=\frac{(\propto*\tau)^2*(\frac{1}{b}+\frac{1}{d})}{2} \quad (11)$$

Dövlət gəlirlərini, istehsalçı gəlirlərini və istehlakçı profisitini maksimumlaşdırmaq üçün bəzi məhdudlaşdırıcı şərtlər müəyyən edilib:

1. Səmərəlilik itkilərinin (DWL) minimum şərti ilə maksimum dövlət gəlirlərinin (ΔSR) müəyyənləşdirilməsi. Burada "minimum" sözü DWL üçün tariflərin avtarkiya səviyyəsindən aşağı olduğunu göstərir ($\tau < \tau_{dwl}^{a}$);

2. Səmərəlilik itkisinin (DWL) minimum şərti ilə istehsalçıların maksimum gəlirlərinin (ΔPS) müəyyənləşdirilməsi. Burada da "minimum" şərti DWL üçün tariflərin avtarkiya səviyyəsindən aşağı olduğunu göstərir ($\tau < \tau_{dwl}^{a}$);

3. İstehlakçı xərclərinin (ΔCS) minimum şərti ilə maksimum dövlət gəlirlərinin (ΔSR) müəyyənləşdirilməsi. Burada "minimum" şərti, ΔCS üçün tariflərin avtarkiya səviyyəsindən daha az olduğunu göstərir ($\tau < \tau_{cs}^{a}$);

4. İstehlakçıların xərclərinin (ΔCS) minimumlaşdırılması şərti ilə istehsalçıların mənfəətinin (ΔPS) maksimum müəyyənləşdirilməsi. Burada da "minimum" şərti, ΔCS üçün tariflərin avtarkiya səviyyəsindən daha az olduğunu göstərir ($\tau < \tau_{cs}^{a}$).

**Müddəa 9: Tədqiqata cəlb edilən mal qruplarına tətbiq olunan tarif dərəcələri avtarkiya səviyyəsindən xeyli aşağıdır.**

Tədqiqata cəlb edilən məhsul qrupları üzrə ekstremum tariflər, yəni maksimum istehlakçı zərərləri, istehsalçıların minimum gəliri, maksimum ölkə gəliri və maksimum səmərəlilik itkisi mövcud tariflərdən kəskin şəkildə fərqlənir.

**Cədvəl 4.**

**Azərbaycanda müəyyən mal qrupları üzrə idxal tariflərinin təsirlərinin ekstremumları (2016)**

| Məhsul qrupları | İdxal tarifləri | ΔCS | ΔPS | ΔSR | DWL | Avtarkiya |
|---|---|---|---|---|---|---|
| | | $\tau_1=\frac{c-\gamma}{\gamma}$ | $\tau_2=\frac{a-\gamma}{\gamma}$ | $\tau_3=\frac{ad+cb-\gamma(d+b)}{2\gamma(d+b)}$ | $\tau_4=0$ | $\tau^a=\frac{a*d+b*c}{\gamma(d+b)}-1$ |
| Makaron | 0.33 | 2.74 | -0.195 | 0.784 | 0 | 1.567 |
| Kərə yağı | 0.33 | 26.61 | -0.195 | 1.109 | 0 | 2.218 |
| Kolbasa və oxşar mallar | 0.33 | 3.71 | -0.195 | 1.547 | 0 | 3.094 |
| Tərəvəz və meyvələr | 0.33 | 1.70 | -0.195 | 0.380 | 0 | 0.761 |

Qeyd: müəllif tərəfindən hesablanmışdır

Cari idxal tariflərinin bütövlükdə iqtisadiyyatdakı makroiqtisadi nəticələrini ΔCS, ΔPS, ΔSR və DWL ekstremumlarına uyğun olan tariflərlə müqayisə edərək ekstremumdan artıq tarif dərəcələrinin iqtisadiyyat üçün mövcud orta tarifdən çox fərqli olduğunu görə bilərik. Azərbaycan üçün stehlakçıların xərclərinin maksimum olduğu tarif dərəcəsi 62% -dir. Maksimum dövlət gəliri 26% tariflərlə əldə edilir. Azərbaycan iqtisadiyyatı üçün avtarkiya 53% tariflərlə əldə edilir.

Beləliklə, əminliklə demək olar ki, Azərbaycanın mövcud xarici ticarət rejimi avtarkiyadan uzaqdır. Çünki Azərbaycan iqtisadiyyatı üçün mövcud orta tarif 16% -dən çox deyil. Ancaq mövcud tariflər liberallaşma istiqamətində dəyişərsə, məsələn, 5-6% azalma ilə, səmərəlilik itkisi 75%, istehlakçı artığının itkisi isə 27% azalacaq. Ancaq eyni zamanda, dövlət gəlirləri və istehsalçıların gəlirləri də azalır.

**Cədvəl 5.**

**Azərbaycanda məcmu idxal tariflərinin makroiqtisadi təsiri**

| | Orta idxal tarifi | ΔCS | ΔPS | ΔSR | DWL | Avtarkiya |
|---|---|---|---|---|---|---|
| Ekstremuma uyğun olan tariflər | - | 0.6216 | -1.7926 | 0.2640 | 0.0000 | 0.5280 |
| 2016-cı il üçün potensial təsir (milyon ABŞ dolları) | 0.1588 | 571.4 | 185.2 | 164.5 | 221.7 | - |

Qeyd: müəllif tərəfindən hesablanmışdır

**Müddəa 10: 2015-ci ildə manatın devalvasiyası nəticəsində ümumi ərzaq xərclərindəki azalma ev təsərrüfatlarının gəlirindəki ümumi azalmada mühüm çəkiyə malikdir.**

İstehlakçılar tariflərin tətbiqi nəticəsində qiymət artımı səbəbindən müəyyən miqdarda maliyyə itirirlər (ΔCS-ə qədər). Bu itki ev təsərrüfatlarının gəlirlərindəki artımdan (yəni ΔHİ-dən) çox azdırsa, tariflərdəki belə dəyişikliklər əhalinin rifahında ciddi əks olunmur. Tariflərin tətbiqi və ya artması ilə əlaqəli istehlakçı artığının itkisi, ev təsərrüfatı gəlirlərinin artımından daha yüksək olarsa, tariflərin tətbiqi və ya artırılması arzuolunmazdır. Çünki bu, əhalinin rifahına mənfi təsir göstərə bilər. Mövcud tariflər ev təsərrüfatlarının gəlirindəki dəyişikliklə müqayisədə istehlakçı itkilərini artırmazsa, eyni zamanda dövlətin və istehsalçıların gəlirləri artarsa, belə tariflər daxili bazarın qorunması naminə saxlana bilər. Tariflərin tətbiqi nəticəsində yaranan istehlakçı artığı itkilərinin ev təsərrüfatlarının gəlirlərinin dəyişməsi ilə müqayisəsi bizə liberallaşma səviyyəsini idarə etməklə yanaşı, həm də daxili bazarı qorumağa imkan verir.

2015-cı ildə manatın devalvasiyası nəticəsində ev təsərrüfatlarının gəlirlərinin cəmi azalmasında qida məhsullarına çəkilən cəmi xərclərin azalma həcmi mühüm çəkiyə malik oldu. Bəzi mallar üzrə (məsələn, ət kolbasası, kərə yağı, konservləşdirilmiş meyvə və tərəvəz, makaron) belə xərclər qida məhsullarının idxalına tətbiq edilən tariflərin yaratdığı istehlak artığı itkisindən xeyli çoxdur.

Devalvasiya nəticəsində milli gəlirin azalma səviyyəsi idxal tariflərinin tətbiq edilməsi nəticəsində yaranan istehlakçı artığı

itkisindən xeyli yüksək olub. ARDSK-nın məlumatlarına əsasən, 2016-cı ildə ölkənin gəlirlərindəki dəyişikliklərin həcmi 2287,3 milyon dollar təşkil edib.Təklif olunan metodologiyaya əsasən idxal tarifləri o səviyyədə olmalıdır ki, $\Delta CS \leq 474$ mln. dollar olsun. Bu, ölkə üçün orta tariflərin 8% qədər azalması deməkdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

**1.** Qloballaşmanın mərhələləri bir-birindən nəinki istifadə edilən nəqliyyat sisteminə görə, həm də ticarət edilən malların strukturuna görə fərqlənirlər. Ticarətin "intra-industry" növü getdikcə bütün mallar üçün xarakterik olur;

**2.** "İdxalın çəkisi" üzrə orta tariflərin hesablanmasının bəzi çatışmazlıqları var və belə hesablanmış orta tarif göstəricisi xarici ticarət rejiminin məhdudlaşdırılması səviyyəsi kimi qəbul edilə bilməz;

**3.** "Böyük" dövlətlər üçün idxaldan əldə edilən gəlirlər dünya qiymətlərinin azaldılması hesabına baş verir. "Kiçik" dövlətlər üçün belə gəlirlər daxili istehlakçıların xərclərinin artması hesabına formalaşır;

**4.** Azərbaycanda "Əsas ixrac kateqoriyası indeksinin" 50%-dən yüksək olması ölkə iqtisadiyyatının asılı olduğu ixrac mal kateqoriyasını müəyyən etməyə imkan verdiyi kimi, onun idxal prosesinə tətbiqi də idxalın nə dərəcədə geniş spektrli olmasını üzə çıxarır. İxracda diversifikasiyanın olmaması mənfi hal kimi qiymətləndirildiyi halda, idxalda belə "diversifikasıyanın" olması, əksinə mənfi hal kimi dəyərləndirilə bilər;

**5.** Azərbaycanın xarici ticarət fəaliyyətinin "xarici ticarətdən asılılıq ideksi" üzrə analizi deməyə əsas verir ki, bu asılılıq son 22 ildə 38%-lik ən aşağı səviyyədən (1998-cı il) 112%-lik ən yüksək səviyyəyə (2008-ci il) qədər dəyişib. Çox kiçik fluktuasiyalar olsa da orta asılılıq səviyyəsi 55%-dən çoxdur. Xidmətlərin idxal və ixracı nəzərə alınarsa, onda asılılıq indeksi daha yüksək olar;

**6.** Azərbaycanın xarici ticarət fəaliyyəti, mahiyyəti etibarı ilə, "inter-industry" və "intra-industry" xarakterlidir. Əgər idxal və ixrac olunan malları Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə nəzərdən keçirsək, onda xarici ticarət əməliyyatını əsasən "intra-industry ticarət" hesab edə bilərik.

**7.** Azərbaycanda son 17 ildə ÜDM həcminin, milli gəlirin, xarici ticarət dövriyyəsinin kəskin artması ticarət şərtinin də daim dəyişməsinə səbəb olub. Xüsusilə, 2011-ci ildə neft gəlirlərinin ən pik

dövründə ölkədə ticarət şərti kəskin dəyişib. Ticarət şərtinin Azərbaycan üçün xarakterik cəhəti onun dövrülüyüdür.

**8.** Effektiv tarif dərəcələrinin hesablanmasına əsasən gömrük ödənişləri vasitəsilə əsas qida məhsulları istehsalı üzrə daxili bazarın qorunması təmin edilib. Nəzərdən keçirdiyimiz məhsullardan yalnız ikisi üzrə - "Meyvə və tərəvəz şirələri", həmçinin "Konservləşdirilmiş tərəvəz və meyvələr" nomenklaturası üzrə daxili bazarın effektiv qorunma dərəcəsi mənfidir. Siqaret istehsalında da daxili istehsal effektiv qorunmur.

**9.** Emal sənayesinin bir neçə sahəsində (pambıq parça və dəri ayaqqabıların istehsalı) daxili bazarın qorunması üçün yüksək gömrük ödənişləri tətbiq edilib. Lakin son məhsullarla eyni səviyyədə aralıq məhsullara gömrük ödənişlərinin tətbiqi effektiv tariflərin aşağı səviyyədə olmasına və daxili bazarın qorunmamasına səbəb olub. Azərbaycanda hətta pambıq parça istehsalında effektiv tarif dərəcəsi mənfidir, yəni daxili bazar qorunmur.

**10.** Tədqiqat zamanı istifadə etdiyimiz mal qrupları üçün tətbiq edilən tarif dərəcələri avtarkiya səviyyəsindən xeyli azdır.

**11.** 2015-cı ildə manatın devalvasiyası nəticəsində ev təsərrüfatlarının cəmi gəlirlərinin azalmasında qida məhsullarına çəkilən cəmi xərclərin azalması mühüm çəkiyə malikdir. Bəzi mallar üzrə (məsələn, ət kolbasası, kərə yağı, konservləşdirilmiş meyvə və tərəvəz, makaron) belə xərclər qida məhsullarının idxalına tətbiq edilən tariflərin yaratdığı istehlak artığı itkisindən xeyli çoxdur.

**12.** 2015-ci ildə devalvasiya nəticəsində Azərbaycanda milli gəlirin azalması səviyyəsi orta idxal tariflərinin tətbiqi nəticəsində yaranan istehlakçı artığı itkisindən xeyli çoxdur.

**13.** Məcmu idxalın tələb funksiyası əsasən üç dəyişəndən-gəlirlərdən, milli valyutanın alıcılıq qabiliyyəti paritetindən və cəmi gömrük ödənişlərindən asılıdır. Gəlirlər azaldıqca, həmçinin manatın alıcılıq qabiliyyəti pariteti və cəmi gömrük ödənişləri artdıqca idxala olan tələb də azalır.

**14.** İdxala tələb funksiyası xarici ticarətin liberallaşması səviyyəsini müəyyən etməyə imkan verən "xarici ticarət sub-indeksindən" və ya xarici ticarət azadlığından" asılı deyil.

Tədqiqat zamanı əldə edilən bu və digər nəticələr qərar qəbuledicilərə ünvanlanan aşağıdakı təkliflərin irəli sürülməsinə imkan verir:

- Azərbaycanda istehsalının mümkün olduğu bəzi kateqoriyalı mallar üzrə yüksək həcmdə idxalın mövcudluğu narahatlıq yaratmalıdır və belə malların idxal həcminin mərhələli şəkildə azaldılmasına və daxili istehsalın genişləndirilməsinə dəstək verilməlidir;
- Devalvasiya dövründə əhalinin real gəlirlərinin kəskin azaldığını nəzərə alaraq, bəzi qida mallarının (məsələn, ət kolbasası, kərə yağı, konservləşdirilmiş meyvə və tərəvəz, makaron) idxalına qoyulan tarif dərəcələrinin ləğv edilməsi və ya azaldılması rifah halına müsbət təsir edə bilər.
- 2015-ci ildə devalvasiya nəticəsində milli gəlirin azalma səviyyəsi idxal tariflərinin tətbiqi nəticəsində yaranan istehlakçı artığı itkisindən xeyli çoxdur. Buna görə də istehlakçı artığı itkilərinin azaldılması üçün orta idxal tariflərin 8% qədər azaldılmasına ehtiyac var.

## Dərc olunmuş elmi əsərlərin siyahısı:

1. Gülalıyev, M.G., Abasova, S. Azərbaycan və Avrasiya iqtisadi ittifaqı: problemlər və perespektivlər // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, - 2014. №4, - s.135-141.
2. Abasova, S.A. Azərbaycanda ixracın makroiqtisadi təsirləri. // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, - 2015. №4, - s.5-11.
3. Гюльалиев, М.Г., Абасова, С.А. Азербайджан и евразийский экономический союз: проблемы и перспективы // - Viena: Economics and finance, - 2015, c.20-26.
4. Abasova, S.A. İqtisadi nəzəriyyələrdə xarici ticarətin mahiyyətinin təkamülü // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, - 2015. №5, s. 79-84.
5. Гюльалиев, М., Абасова, С. Азербайджанская экономика: предпосылки для ускоренной девальвации // - Йошкар-Ола: Республика Марий, – Эль, Инновационные технологии управления и права, - 2015. №3 (13), - с.27-39.
6. Гюльалиев, М., Абасова, С. О нижнем и верхнем пределах экономически эффективного государственного вмешательства во внешнюю торговлю // - Санкт-Петербург: ПолитЭкс, Санкт-Петербургский государственный университет, - 2016. Том 12, №3, - 56-68.
7. Abasova, S.A. Ticarət axınlarının analizi metodları // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, - 2016. №5, - s. 81-86.
8. Gulaliyev, M., Abasova, S. Assessment of impacts of the state intervention in foreign trade on economic growth / M. Gulaliyev, S. Abasova, Huseynova, R. [ et. al.] // Revista Espacios, Indexed em Scopus. – 2017. Vol. 38, №47. - p.33.
9. Abasova, S.A. Devalvasiyanin xarici ticarət balansina təsiri // “Strateji islahatlar: Qabaqlayıcı vergi siyasəti” A. Musayevin

anadan olmasının 70 illiyinə həsr edilən Beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: Elm-bilik, - 2017. – s.380-381.

10. Абасова, С.А. Защита внутреннего рынка и ее пределы // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, - 2018. №4, - s. 44-54.

11. Gulaliyev, M., Abasova, S. Model shaping forms of state intervention in the economy and economic model of the country / M. Gulaliyev, S. Abasova, I. Mehdiyeva [et. al.] // International Journal of Management and Business Research, Scopus, - 2018. 8 (1), - p.80 - 92.

12. Абасова, С.А. Особенности внешней торговли Азербайджана // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, - 2018. №3, - s.42-49.

13. Абасова, С.А. Оценка номинального и эффективного уровня тарифов для некоторых категорий товаров // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, İqtisadi Artım və İctimai Rifah jurnalı, - 2020. №1, s.42-49.

14. Абасова, С.А. Модели определения эффектов импортных тарифов для защиты внутреннего рынка некоторых категорий товаров и экономики в целом // “Regional inkiıafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırıılar” mövzusunda Respublika elmi konfransının Materialları. – Mingecevir: 11-12 dekabr, - 2020, - с.327-330.

15. Abasova, S.A. Assessment of Foreign Trade Liberalization Impacts on Trade Flows by Gravity Method: Azerbaijan Case // 16th Turkey International Conference on Industry, Law, Education and Interdisciplinary Studies (TILEIS-20), - Istanbul: March 2-4, 2020, - 40-46p.

16. Gülaliyev, M., Abasova, S. Dövlətin iqtisadiyyata müdaxilələri:iqtisadi sistem və iqtisadi model // İS(S)İ-2015: İqtisadiyyatın liberallıq potensialı. Kollektiv Monoqrafiya. – Bakı: İqtisadyyat İnstitutu, - 2017. - 41-61 s.

Dissertasiyanın müdafiəsi *02 İyul 2021-ci il* tarixində saat *12* $^{00}$ AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115.

Dissertasiya ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat *01 İyun 2021-ci il* tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10. 05.2021
Kağızın formatı: 60x84 $_{16}/^{1}$
Həcm: 38.000
Tiraj: 30